# Türkün gücünü nümayiş etdirən festival

***Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra tədricən nüfuzlu beynəlxalq təşkilatların fəal üzvlərindən birinə çevrildi. Ölkəmiz beynəlxalq aləmdəki mövqeyini möhkəmləndirdikcə tədricən nüfuzlu təşkilatların tədbirlərinin keçirildiyi məkana çevrildi. Dünya birliyinin ölkəmizə göstərdiyi bu etimad respublikamızda yaradılmış davamlı sabitliyin, eyni zamanda, Prezident–xalq vəhdətinin nümunəsi idi. Hətta, dünyanı pandemiya xofu bürüdüyü bir zamanda da dövlət başçımızın təşəbbüsü ilə videoformat şəklində bir sıra beynəlxalq səviyyəli mühüm əhəmiyyətli tədbirlər keçirildi. Bu gün respublikamız beynəlxalq tədbirlərin keçirildiyi məkana çevrilmək ənənəsinə sadiqliyini yenə də nümayiş etdirir. “TEKNOFEST Azərbaycan” Aerokosmik və Texnologiya Festivalı bu ənənənin davamıdır.***

Azərbaycan Ordusu Ermənistanın 30 illik işğalına son qoyduqdan sonra ölkəmiz beynəlxalq tədbirlərin keçirilməsi ənənəsinə sadiqliyini daha çox nümayiş etdirir. Bu dəfə artıq işğaldan azad edilmiş Şuşa, Cıdır düzü beynəlxalq əhəmiyyətli tədbirlərin keçirildiyi məkana çevrildi. Bu, tarixi Qələbəmizin xalqımıza bəxş etdiyi növbəti sevincin təntənəsi idi. Respublikamız daha bir əhəmiyyətli, necə deyərlər, səsli-sədalı tədbirə – “TEKNOFEST Azərbaycan” Aerokosmik və Texnologiya Festivalına da evsahibliyi etdi. Bakıda ilk dəfə keçirilən bu festival dünyanın diqqət mərkəzində idi. Çünki Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, həmçinin birinci xanımlar Mehriban Əliyeva və Əminə Ərdoğanın festivalın keçirildiyi məkana gəlmələri tədbirin əhəmiyyətini daha da artırırdı. Bu, Türkiyə – Azərbaycan dostluğunun dünyaya daha bir nümunəsi idi. Həm də, dünya bir daha türkün gücünü görsün, yerini bilsin.

Türkiyə – Azərbaycan bir yerdə inamla addımladıqca, bölgəmizdə sülh və barış bir o qədər möhkəm olacaq. Dünya şahid oldu ki, iki dost və qardaş ölkənin kədəri də, sevinci də birdir. Biz sözdə deyil, əməldə də qardaş olan iki dövlət və iki xalqıq. Festivalda çıxış edən prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan iki ölkənin dostluq və qardaşlığını əks etdirən əhəmiyyətli mesajlar səsləndirdilər. Bu tədbirin Türkiyə–Azərbaycan diplomatik əlaqələrinin 30 illik yubileyi ərəfəsində keçirilməsi də mühüm əhəmiyyətə malikdir.

Möhtərəm Prezidentimiz müstəqilliyimizin bərpasının 30 illik tarixi ərzində Türkiyənin daim Azərbaycanın yanında olduğunu bildirdi: “Biz 30 il ərzində bu dəstəyi, bu qardaşlıq dəstəyini hər zaman hiss etmişik, bu gün də hiss edirik və bu gün Türkiyə–Azərbaycan yenə də bir yerdədir. Azərbaycan və Türkiyə daim bir-birinə dəstək göstərir. Bizim ölkələr yaxşı günlərdə də, çətin günlərdə də hər zaman bir-birinin yanındadır. Nə qədər Türkiyə və Azərbaycan bir yerdə inamla addımlasa, bölgəmizdə sülh və barış o qədər də möhkəm olacaqdır”.



İkinci Qarabağ müharibəsi zamanı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın müharibənin ilk saatlarında qətiyyətlə dediyi “Azərbaycan tək deyil, Türkiyə onun yanındadır” – xəbərdarlığı ölkəmizə güc, ruh və inam verdi. Düşmən üzərindəki şanlı Qələbəmizdən sonra da dünya Azərbaycan –Türkiyə birliyinin şahidi oldu. 2021-ci ilin dekabrında Bakının Azadlıq meydanında keçirilən Zəfər paradında bunun bir daha şahidi olduq. Həmin paradda qardaş ölkə Prezidenti Rəcəb Tayyib Ərdoğan dövlət başçımızla çiyin-çiyinə dayanmışdı. Orada, eyni zamanda, Türkiyədən gəlmiş böyük nümayəndə heyəti, türk əsgər və zabitləri iştirak edirdilər. Bu, bir daha bizim birliyimizi, dostluğumuzu və qardaşlığımızın təntənəsi idi.

İşğaldan azad edilmiş ərazilərdə aparılan genişmiqyaslı bərpa-quruculuq işlərində də Türkiyə Azərbaycanın yanında olduğunu açıq şəkildə nümayiş etdirdi. Qardaş ölkə Prezidentinin Füzuli Beynəlxalq Hava Limanının açılışında, Şuşada və Cıdır düzündə keçirilən tədbirlərdə iştirakı, həmçinin müstəqillik tariximizin yaddaşına əbədi həkk olunmuş tarixi Şuşa Bəyannaməsini imzalayaraq, iki ölkənin bundan sonra da yüksələn xətlə ancaq irəliyə gedəcəyinin əyani təzahürüdür. Türkiyənin artan gücü Azərbaycanı gücləndirir və hər iki ölkə bir-birinin gücünə güc qataraq dünya miqyasında söz sahibinə çevrilir.

Prezident Rəcəb Tayyib Ərdoğan da çıxışında önəmli mesajlar verdi. Dost ölkənin başçısı Şuşa Bəyannaməsinin qardaşlıq əlaqələrimizi strateji müttəfiqlik səviyyəsinə çatdırdığını vurğuladı. İki ölkə arasında enerjidən mədəniyyətə, müdafiədən ticari, iqtisadi və bəşəri münasibətlərə qədər uzanan geniş bir sahədə güclü əməkdaşlıqlar quruldu. İkitərəfli əlaqələrimiz təkcə bölgəyə deyil, bütün dünyaya nümunə ola biləcək bir səviyyəyə çatdı: “Azərbaycan və Türkiyə birliyi təzyiqlə, təhdidlə qorxudulanlardan olmayıb və əsla olmayacaq. İşğala və haqsızlığa qarşı hər şəraitdə doğru olanı söyləməkdən, haqlı mübarizəmizi müdafiə etməkdən geri durmadıq və durmayacağıq”.

***Səhər İSMAYILOVA,***
***politoloq***

Xalq qəzeti .- 2022.- 1 iyun.- S.6.